

# Göz adam aldadır, ay saçı burma, Nə özün əzab çək, nə məni yorma

*Fəxrəddin Teyyub*

## ÜRƏK

Ovunmaz dünyanın varını versən
Dərdin yuvasıdı içini görsən.
Sirrini, sözünü ona deyirsən,
Adama anadı, bacıdı ürək.

Dalınca getmişəm alın yazımın
Ünvanı göylərdi gələn ruzimin.
Neçə istəyimin, neçə arzumun
Hissimin, duyğumun tağıdı ürək.

Çağlayan təbimi oxşayır elə
Dünyanın yükünü daşıyır elə.
Çırpına-çırpına yaşayır elə,
Əzəldən ümidin ağıdı ürək.

## BEŞ MANAT

Beş manat pul tapdəm səhər yerdə mən
Əyilib götürmək ar gəldi mənə.
Elə bil tuş gəldim təzə dərdə mən.
Bir anlıq bu dünya dar gəldi mənə.

Görən hansı kasıb salıb əlindən
Kündəsi küt gedib düşüb təndirə.
Bəlkə boğulurmuş qayğı selində
Sonuncu ümidi düşəndə yerə.

Əzəldən düzlükdü mənası ömrün
Baxmadım, görmədim özgə varını.
Bir evin süfrəsi açılmaz bu gün
Kimsə ac qoyacaq balalarını.

## QADINLAR TANRININ BACILARIDI

Bəxt gətirməyəndə, tənha qalanda,
Bulud tək boşalır, dolur qadınlar.
Qayğı görməyəndə, unudulanda,
Güldanda gül kimi solur qadınlar.
Gün azdı, ay azdı, düşünürəm mən
Gərək hər kişinin məramı olsun.
Səkkiz mart sözünü silin lüğətdən,
Qoy hər gün qadınlar bayramı olsun.

Durna qanadında lələk kimidi
Qadının göz yaşı ağılarıdı.
Hər biri günahsız mələk kimidi,
Qadınlar Tanrının bacılarıdı.

## AŞAĞI

Şama bənzəyirəm, sönürəm hərdən,
Yoxuşa çıxıram, enirəm hərdən.
Qəmin bulağına dönürəm hərdən
Axanda gözümün yaşı aşağı.

Kişi tək batmışam, batanda da mən,
Əl çatmaz arzuma çatanda da mən.
Yuxarı atmışam atanda da mən,
Heç vaxt atmamışam daşı aşağı.

Gözəldir zirvənin qarı olanda,
Payızda çəmənlər sarı olanda.
Ağaca oxşayır barı olanda
Mənim əllərimin başı aşağı.

## GETDİ

Gələn qocalıqdı tuşuma neynim,
Gəlmir daha yoxuş, xoşuma neynim.
Yaxamdan yapışan yaşıma neynim?
Qoymur gedib görəm dağları, getdi.
Nisgilli bir ömür, ömürdü bəyəm?
Nə vaxtdı bilmirəm mən kiməm, nəyəm.
Keçən xoş günlərin həsrətindəyəm,
Ömrümün bəxtəvər çağları getdi.
Ölürəm düşəndə dara adamlar
Görən hara gedir, hara adamlar.
Cəyirdir atını qara adamlar,
Hayıf ki, dünyanın ağları getdi.

## METRODA

Bu nə möcüzəydi başıma gəldi
Döndü sevincimdən ürəyim dağa.
Qız, ədəb-ərkanın xoşuma gəldi
Məni görən kimi durdun ayağa.

Hər kəs bilir eybin öz övladının
Bu hansı əsrdi, ildi görəsən?
Bir ata, bir ana qız övladının
Böyük olmağını bildi görəsən?

Nəcib əməlinə başımı əydim
Ömrümə bir ömür calandı bu gün.
Sənin ünvünını kaş öyrənəydim,
Atana-anana baş əymək üçün.

## ETİRAF

Dadı, tamı qaçıb turşdu ayranım
Məndə xoşa gələn nə var, heyranım.
Mənə ürəyində yer ayıranım,
Budağı quruyan ağacam daha.

Sağalan deyildir yaram, ha sarı,
Uçubdur ömrümün sevgi hasarı.
Yol alıb gedirəm qüruba sarı,
Atəşin, odum yox, nur saçan daha.

Günüm, ayım gedib, məni il vurub,
Xəbərim olmayıb, naqafil vurub.
Yaşım qapısına bir qıfıl vurub
Bağlıdı məhəbbət qalacam daha.

## MƏZARLARA YARAŞAN MİSRALAR

Sənsiz kaş biləydin, necə çətindi,
Buluda dönürəm, gözüm dolanda.
De görüm, qayğına kim qalır indi?
Üstünü kim örtür soyuq olanda?

Ağlına gəlməzdi, gəlməzdi müdam
Bir gün düşəcəksən dərdə, azara.
Bu boyda dünyaya sığmayan adam
Necə sığışmısan o dar məzara.

Yas tutub ağlasın qoy göy də, yer də
Saflıq sarayıdı, imarət idi.
İşi özgələri düşünmək, bir də
Yaxşılıq etməkdən ibarət idi.

Salmışam yolumu dumana, çənə
Görə bilməmişəm sabahlarımı.
Qoynunu ana tək açıbdır mənə
Torpaq bağışlayıb günahlarımı.

Yaman üşüyürəm şaxtada, qarda
Bəlkə canım qıza yazda deyirəm.
Nə vaxtdı gözlərim qalıb yollarda
Sağ olsun oğul da, qız da deyirəm.

İnsanın qanadsız quş olmağını
Ürək ağrısını çəkəndə bildim.
İşə bax, dünyanın boş olmağını
Əzrayıl sinəmə çökəndə bildim.

Halım yox, kiminsə dərdini çəkəm
Sıxır ürəyimi bu sinə daşım.
Gedən yox, gələn yox, tənhayam, təkəm
Bir də lal sükutdu könül sirdaşım.

## VƏDƏSİNDƏ

Gecikən bir eşqin adın qoyma, qız
Ruma sevginin odun qoyma, qız.
İpimin üstünə odun qoyma, qız
Alınmaz bu sevda bil, vədəsində.

Keçir ilim, ayım, günüm bax belə
Yetməyir heç kəsə ünüm, bax belə.
Səni aldadımmı, bostan, bağ belə?
Başına bir çarə qıl, vədəsində.

Göz adam aldadır, ay saçı burma,
Nə özün əzab çək, nə məni yorma.
Gözünün sözüylə oturma, durma,
Səni yoldan eylər bal vədəsində.

Nə olsun təşnəsən sevgi suyuma
Batarsan içində düşsən quyuma.
Baxsan dürüşuma, götür qoyuma
Düşəcək qəlbinə xal, vədəsində.

Qorxuram söz deyəm ürəyin sına,
Sarayın uçula, dirəyin sına.
Salma məni sevgi siyahısına,
Ömrümün-günümün çal vədəsində.

## ŞAİRLƏR ÖLMÜR Kİ...

***Bacim Fərqanə Mehdiyevanın oğlu Ülfətə***

Hələ dediklərin yuxudu mənə
Kövrək ürəyinin duydum varını.
Ülfət, bacım bu gün oxudu mənə
Ona ad günündə yazdıqlarını.

Qəlbi dağa dönər görsə toyunu
Sənin xoş günündə quş olub gələr.
Payızın yanında səsləsən onu
Durna qatarına qoşulub gələr.

Ömür-gün qırılsa bir şüşə kimi
Demə ki, halımız necə olacaq?
Çıxar kol dibindən bənövşə kimi
Dönüb gül olacaq, qönçə olacaq.

Üstünə ümid qoy, yara sağalar
Darıxma, hökmü var ayın, ilin də.
Ağaca dönəcək gələndə bahar
Danışar səninlə yarpaq dilində.

Hələ çoxlarını yoracaq anan
Ucalıb qəlbində sözün qalası.
Bu dünya durduqca duracaq anan
Şairlər ölmür ki, bacım balası.

## AY PAYIZ...

Nə gözəl səhərdi, bu səhər Allah
Payızın şah vaxtı, ağa vaxtıdı.
Şimşək qamçılayır bulud atları
Torpağa bərəkət yağa, vaxtıdı.

Görən bir də nə vaxt güləcək bağlar
Haçan görəcəyəm bar bənövşəni.
Gözün yerə dikib bardan budaqlar
Əvəz eləyibdir nar bənövşəni.

Torpağa baxıram naxış-naxışdı
Əsir payız yeri, qanım üşüyür.
Xəzəllər ruhuma yağan yağışdı
Bədənim üşüyür, canım, üşüyür.

Qoy sənin üzünü doyunca görək
Neynirsən dumanı, çəni, ay payız.
Elə ki, gəlirsən çırpınır ürək
Anam çox sevərdi səni, ay payız.

## MÜBARƏK

***Ağacəfər Həsənlinin 65 illiyinə***

Payızım dərindi, qışın dayazdı
Baharım yoldadı, hələ ayazdı.
Sözü becərməyin vədəsi yazdı
Hissini, duyuğunu bellə, mübarək.

Kiçilir özünü adam öyüncə
Təbin göydən düşən boxça, düyüncə.
Əzəldən ürəyin qönçədi, qönçə
Açıl buta-buta, güllən, mübarək.

Şəlalə misaralar könülümü oyur
Gör, harda şeirinin ağı var, doyur.
Dönüb dağ çayına dərələr boyu,
Çağlaya-çağlaya sellən, mübarək.

İlhamı olana nə dağ, nə aran
İstər yağış ola, istər qar-boran.
Sümbülə bənzəyir hər təzə misran
Bir qızıl zəmisən, tellən, mübarək.

Mərdin nə işi var tər divanında
Üzünə qar yağıb nər divanında.
Qardaş, ömürn-günün nərdivanında
Bu altmış beşinci pillən mübarək!

## ÖMRÜM

Nə əkdim, nə bitirdim
Neçə dostu itirdim.
Bu ili də ötürdüm
Budandı ağac ömrüm.

Getməyə pir tapmadım
Gəzdim bir-bir tapmadım.
Mən yerdə yer tapmadım
Göylərə möhtac ömrüm.

Adam bəd gün görməyə
Qəm atını sürməyə.
Dərdlərimə verməyə
Xəracdı, xərac, ömrüm.

## AYLA SÖHBƏT

Səni belə nurlu görməmişdim heç
Nə olar, nurundan nur göndər mənə.
Sonraya saxlama, gec olacaq, gec,
Sən Allah, indicə dur, göndər mənə.

Kölgəm bağa düşdü, baxdım barıdan
Olmadı həyatda məni yarıdan
Sinəm qəribsəyib nişan sarıdan
Parlayan bir ulduz dər, göndər mənə.

Mən gərək üzümü göyə göndərim
Ömür ağacından necə gün dərim.
Bəlkə ürəyimi sənə göndərim
Uzaqdan görünmür, gör, göndər mənə.

## SAYĞAC

Güdaza kasıbı, fəhləsi gedir
Çağlayan dənizdi pulu ciblərin.
Əzəldən zəndeyi zəhləsi gedir
İçi boş ciblərdən dolu ciblərin.

Kim deyir yad quşa yuva verməyin
Başını aşağı salacaq hamı.
Heç kəsə havayı hava verməyin,
Satın balonlarda olacaq hamı.

Artırın işığı, qazı, suyu siz
Çörək baha olsun, məni ac qoyun.
Belə zirəksiniz, belə cəldsiniz,
Gedin Günəşdə də bir sayğac qoyun.